


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 104 (24.241)

*10 iyun 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib.

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır. Azad İqtisadi Zonanın ilkin inkişaf mərhələsi olan 60 hektar ərazidə (Zona 1, Mərhələ 1) tikinti işlərinə başlanılıb və bir sıra işlər görülüb. Belə ki, investorlara icarəyə veriləcək torpaq sahələri inşaat üçün artıq hazırdır. Ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. Burada, həmçinin istifadəyə hazır ərazi-daxili və ərazi-xarici mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Zona 1 ərazisinin əsas girişində gömrük-keçid məntəqələri, həmçinin gömrük yoxlanışlarının aparılması üçün binalar inşa olunub.

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının Biznes Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 16 min kvadratmetr olan Biznes Mərkəzinin binası 3 funksional hissədən ibarətdir. Burada Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun ofisi, investorlara vahid pəncərə prinsipi ilə xidmət göstərəcək ofis, investorların idarəetmə qurumları üçün ofislər və təhkim olunan gömrük əməkdaşları üçün ofis fəaliyyət göstərəcək. Biznes Mərkəzində yüksəkkeyfiyyətli xidməti təmin edəcək müvafiq infrastruktur və maddi-texniki baza yaradılıb.

Diqqətə çatdırıldı ki, növbəti inkişaf mərhələsində 138 hektar sahəni əhatə edən standart istehsal müəssisələri və logistika mərkəzləri üçün nəzərdə tutulmuş hissədə və eyni zamanda 211 hektar sahəni əhatə edən ağır sənaye müəssisələri üçün hissədə layihələndirmə işləri davam edir. Növbəti inkişaf mərhələsinə aid 138 hektar sahədə torpaq işlərinə tezliklə başlanılması planlaşdırılır.

Ələt Azad İqtisadi Zonası Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməllərindəndir. Bu layihənin icrası nəticəsində Azərbaycana daha çox xarici investisiyalar cəlb olunacaq və yeni iş yerləri yaradılacaq. Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında və qlobal nəqliyyat dəhlizlərinin üzərində strateji coğrafi mövqeyə malik iqtisadi zonada yaradılan əlverişli şərait, o cümlədən nadir qanunvericilik bazası, fiskal və qeyri-fiskal imtiyazlar zərfi, zəruri infrastruktur və mühəndis-kommunikasiya sistemləri ilə təmin edilmiş sənaye torpaq sahələri, nəqliyyat-logistika mərkəzləri və digər perspektivlər investorlar üçün davamlı regional üstünlük yaradacaq və Ələt Azad İqtisadi Zonasını regional investisiya mərkəzinə çevirəcək.

Bildirilib ki, bu iqtisadi zonada investorlar üçün aşağıdakı fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir:

- İnvestorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət vergisi və hər hansı digər korporativ vergidən azaddırlar;
- Zonada idxal və ixrac zamanı gömrük rüsumları və vergilər tətbiq olunmur;
- Aylıq əməkhaqqı 8 min manata qədər olan işçilər üçün gəlir vergisi tətbiq olunmur;
- Yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır;
- Əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur;
- Xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur;
- Valyuta əməliyyatları və ya mənfəətin repatriasiyasında heç bir məhdudiyyət yoxdur;
- İnvestorların əmlakı heç bir halda milliləşdirilə bilməz və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakını bu və ya digər məhdudiyyətlərdən qorunmasına təminat verir;
- Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu, həmçinin investorların əqli mülkiyyət hüquqlarının tam qorunmasına təminat verir.

Beləliklə, Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Bundan başqa, bu layihənin icrası nəticəsində ölkəmizin milli iqtisadiyyatının dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənəcək.

**AZƏRTAC**

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114, № 7, maddə 703, № 8, maddələr 898, 900, 902; 2022, № 1, maddə 6, № 12, maddə 1370; 2023, № 1, maddələr 13, 21; Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli və 11 aprel tarixli 860-VIQD nömrəli qanunları) 11.1.2.1-1-ci, 11.1.3.3-1-ci və 11.1.4.3-1-ci maddələri müvafiq olaraq 11.1.2.1-2-ci, 11.1.3.3-2-ci və 11.1.4.3-2-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 11.1.2.1-1-ci, 11.1.3.3-1-ci və 11.1.4.3-1-ci maddələr əlavə edilsin:

"11.1.2.1-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin vəzifəsi";

"11.1.3.3-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavinlərinin vəzifələri";

"11.1.4.3-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində mütəxəssislərin vəzifələri;".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 may 2023-cü il*

## "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə

*Ardı 2-ci səhifədə*

854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; 2023, № 1, maddə 50) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.9.7-1-ci, 1.9.10-1-ci yarımbəndlər ləğv edilsin.

2. Aşağıdakı məzmunda 1.9.9-4-cü, 1.9.9-5-ci, 1.9.11-1-ci, 1.9.11-2-ci yarımbəndlər əlavə edilsin:

"1.9.9-4. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

1.9.9-5. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi";

"1.9.11-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

1.9.11-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini".

3. 2.1.2-ci yarımbəndin 6-1-ci abzası ləğv edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda 8-4-cü və 8-5-ci abzaslar əlavə edilsin:

"8-4. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

8-5. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;".

4. 2.1.3-cü yarımbənd üzrə:

4.1. 1-1-ci abzas ləğv edilsin;

4.2. aşağıdakı məzmunda 2-1-ci və 2-2-ci abzaslar əlavə edilsin:

"2-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

2-2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini";

4.3. 13-cü abzasdan " Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru" sözləri çıxarılsın.

5. 2.1.4-cü yarımbənd üzrə:

5.1. 4-2-ci abzas 4-3-cü abzas hesab olunsun və aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilsin:

"4-2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi";

5.2. 19-cu abzasdan "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktorunun müavinləri" sözləri çıxarılsın.

6. 2.1.6-cı yarımbəndin 8-ci abzasından, 2.1.7-ci yarımbəndin 1-ci abzasından və 2.3.3-cü yarımbəndin 1-ci abzasından "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199; 2023, № 1, maddə 49) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmana 1 nömrəli Əlavə – "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları" üzrə:

1.1. 1.6-cı bənddə "xüsusi nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri" sözləri "Administrasiyasında şöbə müdiri, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi" sözləri ilə əvəz edilsin;

1.2. 1.9-cu bənddə "xüsusi nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini" sözləri "Administrasiyasında şöbə müdirinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmana 2 nömrəli Əlavə – "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.4.1-ci yarımbəndinə "köməkçisi" sözündən sonra "Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müşaviri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçisi, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müşaviri" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## Muxtar respublikada taxıl biçininə start verilib





İyunun 9-da muxtar respublika üzrə mövsümün ilk taxıl biçininə Ordubad rayonunun Dəstə kəndindən başlanılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Dəstə kəndində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov, Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev və kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova aidiyyəti üzrə məlumat veriblər.

Bildirilib ki, taxıl biçininin idarə olunması üçün Kənd Təsərrüfatı Nazirliyində Mərkəzi Qərargah yaradılıb. Biçinin vaxtında və keyfiyyətlə aparılması məqsədilə texnika və avtomobillər hazır vəziyyətə gətirilib. Biçin dövründə sahələrdə yanğın təhlükəsizliyinin etibarlı təmini ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qrupları xidmət aparır. Ümumilikdə, bu il muxtar respublikada 21 min 247 hektar sahədə taxıl əkilib. Onun 485 hektarını yaz əkinləri təşkil edir. Ordubad rayonu ərazisində isə 856 hektar sahədə taxıl əkini aparılıb ki, bunun da 85 hektarı buğda, 771 hektarı arpa əkinləridir. Təkcə Dəstə kəndində 389,45 hektar sahədə payızlıq taxıl əkini aparılıb ki, bunun 9,5 hektarı buğda, 379,95 hektarı isə arpa olub. Rayonda əkilən taxıl sahəsinin, təqribən, 50 faizi Dəstə ərazisindədir. Qeyd olunub ki, Zamin Hüseynova məxsus əkin sahəsi əkindən öncə və sonra 3 dəfə suvarılıb, azot gübrəsi verilib.

Səlahiyyətli nümayəndə aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələrini çatdırıb.

Sonra fermer Zamin Hüseynovun əkin sahəsində taxıl biçininə başlanılıb.

**"Şərq qapısı"**

## Antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasının akt zalında "Antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir" adlı konfrans keçirilib.*



Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov antibiotiklərin zərərləri haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar həkimi Süleyman Cəfərov "Antibiotiklərin xeyri və zərəri haqqında nə bilirik", Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkiminin müalicə işləri üzrə müavini İlkay Əliyeva "Pediatriyada antibiotiklərin istifadəsinə müasir yanaşma", Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi aparatının Əczaçılıq və dərman vasitələrinin reyestri sektorunun müdiri Hacı Əliyev "Antibiotiklərin həkim tərəfindən təyin olunması və əczaxanalardan buraxılması qaydaları" mövzularında çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, mütəxəssislər tərəfindən daim xəbərdarlıq edilməsinə baxmayaraq, bəzi insanlar antibiotiklərdən uzun müddət qeyri-düzgün istifadə edirlər ki, bu da bir çox xəstəliklərə səbəb olur. Bu baxımdan antibiotikləri yalnız həkim təyinatı ilə bakteriyalara qarşı həssaslığı yoxlanılaraq qəbul etmək lazımdır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada da istənilən vaxt əczaxanaya girib, heç bir həkim məsləhəti olmadan antibiotik alıb özbaşına istifadə edənlər az deyil. Həmin şəxslər, nəticədə, sonradan onun fəsadları ilə üz-üzə qalır. İnsanlar xəstələndiyi zaman bəzən həkim məsləhəti olmadan, kimlərinsə, məsuliyyətsiz insanların tövsiyələri ilə, ya da əczaxanalarda məsləhət görülən hansısa antibiotikləri qəbul edirlər. Amma, təbii ki, bu cür hallar tamamilə qeyri-qanunidir. Antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir. Antibiotiklər, əksinə, xəstənin vəziyyətini ağırlaşdırır. Antibiotiklər orqanizmə əlavə yükdür. Təəssüf ki, insanlarımız bu reallığı qəbul edə bilmir. Elə bilirlər ki, antibiotiklərdən istifadə edilməsə, sağalmayacaqlar. Bu, tamamilə yanlış düşüncədir və insanın həyatını itirməsinə səbəb ola bilər.

Çıxışlarda xüsusi vurğulanıb ki, Avropada antibiotik qəbuluna nəzarət edən xüsusi komissiyalar var. Həmin komissiyanın qərarı olmadan tibb işçisinin antibiotik təyin etmək hüququ yoxdur. Türkiyədə də artıq apteklərdə antibiotiklərin reseptsiz satışının qadağan olunması ilə bağlı qərar qəbul edilib.

Çıxışlardan sonra suallar cavablandırılıb.

**Ceyhun MƏMMƏDOV**

## Vətəndaşlar qəbul edilib



2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinin tamam olması ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində qəbul olunmuş Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlərin keçirilməsi davam edir. Bu münasibətlə vətəndaşların qəbulunun həyata keçirilməsinə dair plana-uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri tərəfindən muxtar respublikanın rayonlarında vətəndaşların qəbulu həyata keçirilib.

Qəbulların hər birindən öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin və Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin operativ araşdırılması və qanunamüvafiq şəkildə tədbirlərin görülməsi ilə bağlı məhkəmənin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə öz həllini tapıb. Müraciətlərin əksəriyyəti məhkəmələrin fəaliyyəti ilə bağlı olub.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi rayon məhkəmələrinin iş şəraiti ilə tanış olub, işin səmərəliliyinin artırılması ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb.

## Ali Məhkəmədə kitab təqdimatı olub




*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi İlqar Mirzəyevin "Kriminalistika" kitabının təqdimatı keçirilib.*

Tədbiri açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi kitabın işıq üzü görməsi münasibətilə müəllifi təbrik edərək kriminalistika üzrə vacib bilikləri özündə ehtiva edən metodik vəsaitin bu sahədə Azərbaycan dilində çap olunmuş dəyərli nəşr olduğunu diqqətə çatdırıb. İlqar Mirzəyevin pedaqoji fəaliyyətini yüksək qiymətləndirən Ali Məhkəmənin sədri ərsəyə gəlmiş vəsaitin hüquq sahəsinə vacib töhfə olduğunu bildirib.

Göstərilən diqqətə görə təşəkkürünü bildirən müəllif İlqar Mirzəyev çıxışında qeyd edib ki, hüquq-mühafizə praktikasının təkmilləşdirilməsi və kriminalistika elminin inkişafı kriminalistika üzrə tədris kurslarının nəşrini qabaqlayır. Bununla əlaqədar olaraq yenicə işıq üzü görən bu vəsaitin nəşri kriminalistika elminin yeni müddəalarının öyrənilməsinə kömək etmək, cinayətlərin açılması və təhqiqatın kriminalistik məsələlərinin həlli vasitələrinin mənimsənilməsinə töhfə vermək məqsədi daşıyır.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri və əməkdaşları kitabın nəşri münasibətilə müəllifi təbrik edərək uğurlar arzulayıblar.

Sonda müəllifə xatirə hədiyyəsi təqdim olunub.

Qeyd edək ki, oxucuya bu sahədəki biliklərini sistemləşdirməyə imkan verən vəsait özündə kriminalistikanın elmi-nəzəri əsasları, kriminalistik taktika və texnika, ayrı-ayrı cinayət növlərinin araşdırılmasının kriminalistik metodikası barədə dəyərli elmi məlumatları əks etdirir.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Nümayəndə heyəti ali təhsil ocağında



*İstanbul Qalata Universitetinin rektoru, professor Özgür Çengelin onlayn olaraq qatıldığı görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris üsulları barədə məlumat verib, ali təhsil ocağının beynəlxalq əməkdaşlığında Türkiyə universitetlərinin mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.*

Görüşə onlayn qatılan İstanbul Qalata Universitetinin rektoru, professor Özgür Çengel çıxış edərək bildirib ki, rəhbərlik etdiyi ali təhsil ocağının əsası 2019-cu ildə qoyulub. Bildirilib ki, universitetdə Sağlıq, Diş həkimliyi, Sənət və sosial elmlər və idman olmaqla, ümumilikdə, 4 fakültədə tədris prosesi həyata keçirilir.

Görüşdə iştirak edən Robotex Türkiyə Qurucuları Orhan Çevik, Zülal İnan, Robotexin Texniki koordinatoru Gürkan Lokman, İstanbul Qalata Universitetinin İncəsənət və sosial elmlər fakültəsinin dekanı, İdarəetmə İnformasiya Sistemləri Departamentinin rəhbəri Caner Giray fəaliyyət göstərdikləri şirkət barədə ətraflı məlumat verib, birgə əməkdaşlıq məsələlərindən söhbət açıblar.

Qonaqlar Türkiyənin Antalya şəhərində keçirilən "Dünyanın ən böyük robotexnika festivalı"nda qalib olan universitet komandasını təbrik ediblər.

Qeyd edək ki, Türkiyə, Estoniya, İran və digər ölkələrin təmsil olunduğu turnirlərdə "Robotex Türkiyə – 2023" mövsümündə Azərbaycanı Naxçıvan Dövlət Universitetinin 5 nəfərlik heyəti təmsil edib. Məlumat üçün onu da bildirək ki, Estoniyada keçiriləcək Dünya Robot Festivalında ölkəmizi doğma komandamız təmsil edəcək.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

Qonaqlar səfər çərçivəsində Memarlıq və mühəndislik fakültəsinin Elektronika və STEAM mərkəzində, Memarlıq muzeyində olub, tələbələr tərəfindən hazırlanmış layihələrə baxıblar, Texnoparkın layihəsi ilə tanış olan qonaqlar layihənin möhtəşəmliyi barədə öz müsbət fikirlərini səsləndiriblər.

İnformasiya texnologiyaları, Kompüter mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının tələbələrinə robotexnika sahəsində seminar keçirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *"Təqib və İzləmə"* sisteminin təqdimatı keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin, "T&T Texnologiyalar" şəbəkəsinin əməkdaşlarının və sahibkarların iştirakı ilə "Təqib və İzləmə" ("Track and Trace") sisteminin təqdimatı keçirilib.

Təqdimatda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aparat rəhbəri Emil Qarayev təqib və izləmə metodunun tətbiqini şərtləndirən məqamları diqqətə çatdırıb. Bildirib ki, bu sistem təchizat zəncirinin keyfiyyətini, səmərəliliyini və şəffaflığını artırmaqla yanaşı, məlumatların paylaşılması və istifadəsi üçün həllərin hazırlanmasına, təhlükəsizliyin və etibarlılığın artırılmasına geniş imkanlar açır.

Qeyd olunub ki, "Təqib və İzləmə" sistemi istehsal prosesindən ən son istehlakçıya qədər məhsulun keçdiyi bütün yolu real vaxt rejimində izləmək imkanı verir. Sistem vasitəsilə ən çox üstünlük verilən satış nöqtələri və markalar analiz edilir, həmçinin istehsal və logistika imkanlarını optimallaşdırmaq mümkün olur, bu da, öz növbəsində, biznes xərclərinin azaldılması və mənfəətin artırılmasına şərait yaradır.

"T&T Texnologiyalar" şəbəkəsinin əməkdaşı Teymur Məmmədov layihənin tətbiqində üstünlüklər, layihə iştirakçıları, "Təqib və İzləmə" sisteminin ümumi təsviri, marka nümunələri, iştirakçının və məhsulun sistemdə qeydiyyatı və başqa məsələlərlə bağlı işləmə mexanizmi barədə tədbir iştirakçılarına məlumat verib.

Sonda sistemin muxtar respublikada vergi sistemində, eləcə də xaricdən idxal olunan aksizli malların gömrük prosedurlarında tətbiqi ilə bağlı geniş fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Qarabağın iqtisadi inkişafına hədəflənmiş milli prioritetlər ölkəmizin sosial-iqtisadi qüdrətini daha da artıracaq

*Son illərdə bölgədə artan iqtisadi güc hesabına Azərbaycan Şərqlə-Qərbin, Cənubi Qafqazın iqtisadiyyatına təkan verməkdə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşıdır. 30 ildən çox zaman kəsiyində işğal altında qalmış ərazilərdə Vətən bayrağı dalğalandıqdan sonra bu ərazilərin ölkənin ümumi iqtisadiyyatına regenerasiyası, beynəlxalq nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq ölkənin inkişafına böyük təkan verəcək.*

Zəngin faydalı qazıntı yataqları, münbit torpaqları, əlverişli coğrafi mövqeyi, füsunkar təbiəti olan Qarabağda iqtisadi strukturun yenidən qurulması turizm, sənaye, kənd təsərrüfatı, nəqliyyat və digər xidmət sektorlarının canlanmasına zəmin yaradacaq. İşğaldan əvvəlki dövrdə bu bölgədə heyvandarlıq, taxılçılıq, baramaçılıq, pambıqçılıq və üzümçülük kimi kənd təsərrüfatı sahələri inkişaf etdirilir, respublika üzrə orta hesabla taxıl istehsalının 14,3, pambıq istehsalının 3,3, üzüm istehsalının 31,5, kartof istehsalının 6,3, ət istehsalının 14,5, süd istehsalının 17,1, mal-qaranın 15,1, xırdabuynuzlu heyvanların 19,2, yumurta istehsalının 3,6, barama istehsalının isə 17 faizi məhz bu bölgənin payına düşürdü.

Artıq sözügedən ərazilərdə yeni təsərrüfatların və ayrı-ayrı istiqamətlər üzrə aqroparkların yaradılmasına şərait yaradılır. Təməli 2021-ci ilin oktyabr ayında Azərbaycan və Türkiyə prezidentləri tərəfindən qoyulan Zəngilan "Dost Aqropark"ında 6 min hektar sahədə yaradılacaq bitki mənşəli istehsalat və texnika sahələri, bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və maldarlıq məhsullarının beynəlxalq bazara çıxarılmasına imkan yaradacaq.

İşğaldan azad olunmuş ərazilərdə sənaye də iqtisadiyyatın prioritet sahəsi kimi inkişaf etdirilir. Şərqi Zəngəzur iqtisadi rayonunda Araz vadisi iqtisadi zonası, Qarabağ iqtisadi rayonunda isə Ağdam Sənaye Parkının yaradılması kənd təsərrüfatı ilə yanaşı, sənaye sahələrini, xüsusilə emal sənayesini inkişaf etdirəcək. Ağdam rayonundakı karxanalarda tikinti materialları üçün xammal bazasının çoxluğu Qarabağda gedən bərpa işlərində, həmçinin Azərbaycanın digər rayonlarında tikinti materiallarına əlçatanlığı daha da asanlaşdıracaq.

Şanlı Ordumuzun Qarabağ zəfərindən sonra ortaya çıxan yeni regional nəqliyyat şəbəkələri Azərbaycanın bu sahədəki imkanlarının artmasına gətirib çıxarmaqla bölgədə öz imicini formalaşdırmağa, regionun iqtisadi cəlbediciliyini artırmağa və bir çox hallarda ayrı-ayrı ölkələrdən asılılığını əhəmiyyətli dərəcədə azaltmağa səbəb olub.

Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyədə öz təsdiqini tapmış Türkiyə-Azərbaycan əlaqələri daha qırılmaz tellərlə möhkəmlənmişdir. Zəfərdən sonra bir çox istiqamətlərdə yeni əhədəşiklu sazişləri bağlanmış, vizalar aradan qaldırılmış, şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı gediş-gəliş təmin edilmişdir. İqdır-Naxçıvan qaz xəttinin çəkilməsi, Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin tamamlanması, nəqliyyat, inşaat və media sahəsindəki digər işlər geniş vüsət almışdır.

Azərbaycanla Naxçıvanı bir-birinə bağlayan Zəngəzur dəhlizinin qurulması, Türkiyənin Azərbaycanla quru yolu ilə əlaqəsini, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamət üzrə maneəsiz daşınmasına, kommunikasiya sistemlərinin bərpasına və həmçinin Şərqlə Qərb arasında Orta Dəhliz adlanan nəqliyyat dəhlizinin genişlənməsinə böyük imkanlar açır. Qətiyyətlə bildirməliyik ki, Şərq və Qərbi birləşdirən Orta Dəhlizin inkişaf etdirilməsi, fiber-optik kommunikasiyaların qurulması, neft-qaz, nəqliyyat-logistika, dəhliz boyunca multimodal daşınmalar üçün hüquqi və siyasi uzlaşmanın həyata keçirilməsi Prezident cənab İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyətinin bariz nümunəsidir.






Prezidentin apardığı bu siyasət Bjezinskinin "Böyük şahmat taxtası" əsərindəki kimi, ölkənin düzgün mövqe tutması, maraqların toqquşması deyil, ahəngdarlığı təmin edən məkana çevrilməsi ölkənin inkişafı üçün əsas prioritetdir.

Artıq şahidi oluruq ki, dünya postsənaye dövrünü, IV sənaye inqilabı mərhələsini yaşayır. Prezident cənab İlham Əliyev çıxışlarından birində demişdir: ***"Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı onlarla şirkətlə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir".*** 2021-ci il aprelin 19-da Azərbaycan Prezidenti "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncam imzaladı. Zəngilan rayonunun Ağalı kəndinin ərazisindəki "ağıllı kənd" də məhz yeni texnoloji qaydalarla quruldu. Qısa müddətdə Zəfər yolu, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın avtomobil yolları istifadəyə verilib, uzunluğu 110,4 kilometrə bərabər olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyulub, 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilib, "yaşıl enerji" strategiyasına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilib, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının açılışı olub.

Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması üçün 9 su anbarı tikilib. Burada kənd təsərrüfatı və sənayenin inkişafı ölkə iqtisadiyyatı üçün mühüm dayaq verdir. Genişmiqyaslı əkin işləri ilə yanaşı, Kəlbəcər və Laçın rayonlarının təhlükəsiz zonalarına arı ailələrinin və heyvandarlıq təsərrüfatlarının köçürülməsi də öz səmərəsini verməkdədir.

*Prezident cənab İlham Əliyev azadlıq, ədalət və sosial məqsədlərin öhdəsindən gəlməklə, bir tərəfdən azad rəqabət şəraitində iqtisadiyyatı inkişaf etdirir, digər tərəfdən isə ədalətli davranmaqla, sosial rifahı prioritetə çevirir. Azərbaycan Respublikası Prezidentinin əqidə və inam yoldaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da ölkə başçısının siyasi arenasında, həmçinin mədəni irsin təbliğində özünəməxsus yeri və rolu danılmazdır. Bu gün dünyadakı ziddiyyətlərə baxmayaraq, Azərbaycanın bir sabitlik adası kimi inkişaf etməsi Ulu Öndər Heydər Əliyevin yolunu davam etdirən Prezident cənab İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir.*

**Fariz ƏHMƏDOV**

## Məktəblilər arasında EDU Drone müsabiqəsi keçirilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə STEAM təhsili üzrə ilk dəfə olaraq məktəblilər arasında Edu Drone müsabiqəsi keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov STEAM təhsil metodu və bu istiqamət üzrə bu günədək keçirilən müsabiqələrin əhəmiyyətindən danışıb. Bildirilib ki, STEAM təhsilinin tətbiqi dövlətimiz tərəfindən ölkədə təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

Təhsil naziri diqqətə çatdırıb ki, bu sahədə görülən işlərə nəzər yetirdikdə bir daha əminliklə demək olar ki, STEAM təhsilinin tətbiqi ilə bağlı Naxçıvanda ardıcıl tədbirlər həyata keçirilib, yeni-yeni uğurlar əldə olunub.

Daha sonra nazir və tədbir iştirakçıları şagirdlərin müsabiqə sahəsi üçün kodlaşdırdıqları dronların uçuş sahəsi ilə tanış olublar. Şagirdlər müsabiqə qaydalarına uyğun olaraq manual və avtonom idarəetmə ilə bacarıqlarını nümayiş etdiriblər.

Müsabiqədə ümumtəhsil müəssisələrindən 21 komanda olmaqla, 42 şagird və 21 layihə rəhbəri iştirak edib.

Müsabiqə iki mərhələdə təşkil olunub. Yarışa hazırlıq üçün 5 dəqiqə, yarışa isə 3 dəqiqə vaxt verilib. Qaydalara uyğun olaraq yarışa qalxış platformasından başlayaraq göstərilmiş trayektoriya üzrə fiqurları maneəsiz keçən və eniş platformasında yarışı vaxtında bitirən komanda topladığı bala görə yarışın qalibi müəyyən edilib. Hər fiquru keçmək və düzgün eniş platformasına enmək 10 bal intervalı ilə qiymətləndirilib.

Sonda qaliblər Təhsil Nazirliyinin sertifikatları və medalla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Sosial ödənişlərin e-sistem üzərindən proaktiv təyinatına başlanılır

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikada da pensiya, müavinət və təqaüdlərin elektron sistemlər üzərindən proaktiv təyinatı mexanizmlərinin tətbiqinə başlanır.*

Nazirliyin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) tərəfindən təyinatların e-sistemlər üzərindən həyata keçirilməsi mexanizminin qurulması işləri yekunlaşır və artıq uşağın anadan olmasına görə birdəfəlik müavinətin təyinatı ötən aydan proaktivləşdirilib.

Yaxın günlərdə digər müavinətlərin, pensiya və təqaüdlərin elektron qaydada proaktiv şəkildə təyinatına başlanacaq. Nəticədə, həmin sosial ödənişlərə hüququ yaranmış şəxsə müraciətinə və sənəd təqdim etməsinə ehtiyac qalmadan proaktiv qaydada bu ödənişlərin təyinatı aparılacaq və bu barədə ona elektron qaydada məlumat veriləcək.

Eyni zamanda muxtar respublika üzrə pensiya alan şəxslər də artıq *e-sosial.az* portalından pensiyaları barədə məlumat ala, habelə elektron arayışlar əldə edə bilərlər.

Xatırladaq ki, 2019-cu ilin əvvəlindən nazirlik tərəfindən sosial ödənişlərin elektron sistem üzərindən proaktiv təyinatına başlanılıb. Ötən dövrdə 87,1 min pensiya, 486,7 min müavinət, təqaüd proaktiv qaydada təyin olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Ötən ay muxtar respublikada keçirilən maraqlı mədəni tədbirlərlə yadda qalıb

*Ötən ay ərzində "Heydər Əliyev İli" çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Tədbirlər Planına əsasən Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında A.Babayevin "Xilaskar" əsəri əsasında hazırlanan eyniadlı tamaşaya ictimai baxış keçirilmiş, Heydər Əliyev Muzeyi tərəfindən albom-kataloqun hazırlanması işi davam etdirilmişdir.*



Dahi liderə həsr olunmuş konsert proqramları, interaktiv və açıq dərslər, elmi nəzəri konfrans, mühazirələr daxil olmaqla, ümumilikdə, 58 tədbir təşkil edilmişdir. Azərbaycan Respublikasının Mədəniyyət, Elm və Təhsil nazirlikləri və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli Liderin 100 illik yubileyinə həsr edilən I Uşaq İncəsənət Festivalının muxtar respublika mərhələsinin seçimlərinə yekun vurulmuş, Azərbaycan Respublikası Elm və Təhsil, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə SABAH İncəsənət Festivalı keçirilmişdir.

Ulu Öndərin zəngin və çoxşaxəli irsinin öyrənilib təbliğ edilməsindəki müstəsna rolu nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli Qərarı ilə Heydər Əliyev Muzeyinə "muxtar respublika" statusu verilmişdir.

Heydər Əliyev Sarayında keçirilən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı konsert proqramı ilə çıxış etmişdir. Nazirliyin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyinin qarşısında, muxtar respublikanın rayonlarında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsertlər təqdim edilmişdir. 28 May – Müstəqillik Günü ilə bağlı Naxçıvan şəhərində və rayonlarda rayon (şəhər) mədəniyyət idarə və şöbələri tərəfindən konsert proqramları təşkil edilmişdir.

May ayı ərzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda elmi-nəzəri konfrans, ümumtəhsil məktəblərinin şagirdləri üçün interaktiv dərs keçilmişdir. Ay ərzində nazirliyin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində dahi liderin yubileyinə həsr olunmuş tədbirlər, konsertlər də maraqla qarşılanmışdır.

Həmçinin ay ərzində Naxçıvan Dövlət Filarmoniyasının kollektivlərinin məşqləri davam etdirilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan "Naxçıvan – Bəşəriyyətin Beşiyi" VI Beynəlxalq Rəsm Festivalının açılış mərasimində Filarmoniyanın yaradıcı kollektivlərinin və "Şərur" Xalq Yallı Ansamblının çıxışı alqışlarla qarşılanmışdır.

Ay ərzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərində tələbələrinə 3 açıq dərs, 1 kitab müzakirəsi, 1 mühazirə keçirilmiş, tələbələrin nazirliyin tabeliyində olan muzeylərdə və kitabxanalarda təcrübə qazanmaları təmin edilmişdir.

Naxçıvan Teatrının yaradılmasının 140 illiyi qeyd edilmiş, "Lənkəran xanın vəzirinin sərgüzəştləri" tamaşasına ictimai baxış keçirilmişdir. Hesabat dövründə 17 tamaşa nümayiş etdirilmişdir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında B.İskəndərlinin "Yalanlara inanmayaq" əsəri əsasında hazırlanan tamaşanın ictimai baxışı aparılmışdır.

Ay ərzində muzeylərdə nazirlik tərəfindən 3, muzeylər tərəfindən 11 tədbir keçirilmiş, 3 sərgi qurulmuş, müxtəlif mövzularda 45 açıq dərs və 46 mühazirə keçirilmiş, muzey əməkdaşlarının sakinlərlə görüşü təşkil edilmişdir. Ümumtəhsil məktəblərinin şagirdləri arasında "Rəssamların fırçasında əbədiləşən diyar – Naxçıvan" adlı rəsm müsabiqəsinin muxtar respublika mərhələsi keçirilmişdir. Hesabat dövrü ərzində muzeyləri, ümumilikdə, 60 min 539 nəfər tamaşaçı ziyarət etmiş, mədəniyyət müəssisələrinə 35 yeni eksponat daxil olmuşdur. "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan muzeylərin fondlarında təkrar uçotun aparılması və muzey sərvətlərinin elektron məlumat bazasının yaradılması barədə" nazirliyin 2021-ci il 18 iyun tarixli əmrinin icrası ilə bağlı iş davam etdirilmişdir.

Ay ərzində 18 may – Beynəlxalq Muzeylər Günü qeyd olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi və 18 may – Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Heydər Əliyev – həmişəyaşar lider" adlı tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir sıra muzey direktorları onlayn olaraq iştirak etmişlər.

Hesabat dövründə kitabxanalarda, ümumilikdə, 159 tədbir keçirilmiş, kitabxanalarda may ayı üçün yeni oxucu sayı 1 250, oxucu gəlişi 10 min 503, kitab verilişi isə 69 min 334 nüsxə olmuşdur. Dövr ərzində Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Elektron kitabxanasında elektron kataloqa 57 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 35 min 201-ə çatdırılmışdır.

Şəbəkəyə 50 kitab (PDF) işlənmiş və ümumi sayı 4 min 458-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxananın lokal şəbəkəsindən 470 oxucu istifadə etmişdir. Həmçinin MKS-lərin uşaq kitabxanaları və şöbələri tərəfindən sağlamlıq imkanları məhdud 23 uşağa səyyari kitabxana xidməti göstərilmişdir.

May ayında 2022-ci il ərzində mədəniyyət evləri və klubların əməkdaşları tərəfindən toplanmış folklor nümunələri ümumiləşdirilərək istifadə üçün AMEA Naxçıvan Bölməsinə göndərilmişdir.

Hesabat dövrü ərzində Elmi-Metodiki Mərkəz və klub müəssisələrində 27 tədbir keçirilmişdir.

Naxçıvan Dövlət Film Fondunun fəaliyyəti ay ərzində diqqət mərkəzində saxlanılmış, ümumilikdə, 5 film nümayiş olunmuş, "Sinematoqraf" adlı kinoviktorinanın muxtar respublika birinciliyi keçirilmişdir.

Ay ərzində gənclərlə iş sahəsi də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Gənclər Fondunda Naxçıvan Gənclər Təşkilatının üzvləri arasında "Yaşa və öyrən" bilik yarışı təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Arxeoloji tədqiqatlar başa çatır



Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyasının fəaliyyəti yekunlaşmaq üzrədir. Ekspedisiyanın Sədərək rayonundakı Kültəpə (Sədərək Kültəpəsi) yaşayış yerində apardığı araşdırmalar zamanı olduqca önəmli nəticələr əldə edilmişdir. İndiyədək Cənubi Azərbaycan, Şərqi Anadolu və Cənubi Qafqazda aşkar olunan arxeoloji abidələr ya skiflərə, ya da urartulara aid edilmişdir. Halbuki Urartu kitabələrində bu ölkələrin işğal edilməsi, yəni urartulara aid



olmadığına aid xeyli məlumatlar var. Digər tərəfdən, yuxarıda qeyd etdiyimiz bölgədə aşkar edilən maddi mədəniyyət nümunələri də urartulara və skiflərə aid edilmiş, manalıların isə guya mədəniyyət formalaşdıra bilmədiyi yazılmışdır. Üç yüz ilə yaxın mövcud olan bir dövlətin mədəniyyəti olmazmı?

Apardığımız araşdırmalar urartulara və skiflərə aid edilən bir çox maddi mədəniyyət nümunələrinin Manna dövlətinə məxsus olduğunu təsdiq edir. Sədərək Kültəpəsindən aparılan araşdırmalar zamanı aşkar edilən şəhərlər üçün xarakterik olan üç sıra daş döşəməli küçələr də bunun bir nümunəsidir. İndiyədək bu tip memarlıq nümunələri Cənubi Azərbaycanda Həsənli və Bastamda aşkar olunmuşdur. İstər Həsənlinin dördüncü təbəqəsindən, istərsə də Sədərək Kültəpəsindən aşkar olunan keramika Urartu keramikasından tamamilə fərqlidir.

Daş döşəməli küçələrin isə urartuların Urmiya hövzəsinə və Cənubi Qafqaza yürüşlərindən xeyli əvvələ aid edildiyi karbon analizləri ilə təsdiq olunur. Bu isə Manna dövlətinin özünəməxsus arxitekturaya malik olduğunun sübutudur. Urartu hökmdarı I Argiştinin Araz çayı sahilində qarşılaşdığı ölkələrdən biri də Aza ölkəsi idi. O, Argiştihinili şəhərini Aza torpaqlarında inşa etmişdi. Tədqiqatçıların fikrinə görə, Aza toponimi Manna hökmdarı Azanın adı ilə bağlı olmuşdur. Aza adlı kənd indi də Naxçıvanda Ordubad rayonu ərazisində qalmaqdadır. Araşdırmalara əsasən demək olar ki, Urartuların Cənubi Qafqazda işğal etdikləri torpaqların bir qismi əvvəlcə Etiunilərə, sonra isə Manna dövlətinə məxsus olmuşdur. Həsənli və Sədərək Kültəpəsinin materialları isə bunun inkaredilməz dəlilidir.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Maarifləndirici tədbir olub



Şahbuz rayonunun Kolanı kəndində "Qız övladlarımızı gələcəyin Azərbaycan qadını kimi böyüdək" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri Şahbuz Rayon İcra Hakimiyyəti aparatının əməkdaşı Turanə Məhərrəmli açaraq tədbirin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova ailədaxili münasibətlərin formalaşmasında, uşaqların tərbiyəsində ailə dəyərlərinin mühüm rola malik olduğunu bildirib.

Sonra komitənin əməkdaşı Zərnigar Orucəliyeva slayd vasitəsilə çıxış edib, sosial şəbəkələrin ailələrə və uşaqlara təsirləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhərinin Tumbul kəndində yaşamış Yaqubov Orucəli Vəli oğlunun adına olan 196C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Hüseyn Məşdi oğlu Əliyev ailə üzvləri ilə birlikdə "Ləzzət" Qida Sənayesi Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Teymur Rzayevə, qardaşı
**Ədalət müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 379